**HEYDƏR ƏLİYEVİN DÖVLƏTÇİLİK MİSSİYASININ REALLIQLARI**

**Cahangir Məmmədli**

*BDU, Milli mətbuat tarixi kafedrasının müdiri, professor*

**Xülasə**

*Məqalədə Heydər Əliyevin dövlət quruculuğu və dövlət siyasəti sahəsindəki fəaliyyəti, müstəqil Azərbaycanın müasir inkişaf prosesindəki rolu ətrafında elmi-publisistik fikirlər irəli sürülür. Bu kontekstdə Heydər Əliyevin irəli sürdüyü dövlətçilik ideyaları və bu ideyaların reallaşma faktları təhlilə cəlb edilir. Heydər Əliyevin dövlətçilik konsepsiyası ilə bağlı fəaliyyətinin dünya liderləri tərəfindən yüksək qiymətləndirilməsi faktları da xüsusi sitatlarla təqdim olunur.*

*Açar sözlər: dövlətçilik, müstəqillik, Vətən, azərbaycançılıq, lider, konsepsiya, yaradıcılıq məktəbləri*

Dünya siyasətində böyük ideoloq və böyük diplomat kimi tanınan və qəbul edilən Heydər Əliyev, albəttə, ilk növbədə öz ölkəsi, öz Vətəni və öz xalqının taleyi ilə bağlı fəaliyyət göstərmiş, istər sovet dönəmindəki rəhbərliyində, istərsə də yeni Müstəqillik çağında həmişə Azərbaycanın inkişafını təmin etmişdir. Müstəqilliyimizin yeni dövründə xalqı bəlalardan xilas edən bu böyük, uzaqgörən şəxsiyyəti xalqımız Yeni Azərbaycanın arxitektoru kimi qiymətləndirmişdir. Əlbəttə, Heydər Əliyevin öz ölkəsi, öz xalqı ilə bağlı tarixi xidmətləri bütöv bir məktəbdir və məhz bu cəsarət, müdriklik məktəbinin yaratdığı yol xəritəsi bizim Vətən müharibəsindəki zəfərimizin əsasını təşkil etmişdir. Prezident, Ali Baş Komandan İlham Əliyevin qələbəmizlə bağlı sözləridir: "İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir"(7). Bu qələbə Heydər Əliyevin arxitektoru olduğu Yeni Azərbaycanın qələbəsidir. Xalqın çətin günlərdə birliyi, gənclərimizdə Vətən sevgisinin müqəddəsliyi bu məktəbdən qaynaqlanır. Bəs Heydər Əliyevin özünün Vətən sevgisi hardan qaynaqlanırdı.





Biz bu yazıda Ulu Öndərin Vətən sevgisi kimi müqəddəs bir amalından bəhs edəcəyik.

Müdrik xalq sözü, adətən, təqdim və təlqin etmək istədiyi ideyanı o qədər aydın ifadə edir ki, artıq izaha, təfərrüata ehtiyac qalmır: "Görünən dağa nə bələdçi?!" – bu da izaha ehtiyacı olmayan postulatdır və doğrudan da, görünən dağa nə bələdçi?! Tanrının Azərbaycan xalqına bəxş etdiyi, onun ağır günlərinin talismanı Heydər Əliyev görünən dağdır və onun da həyatını, fəaliyyətini, xalq yolunda sərf etdiyi mübarizə illərini təqdim etməyə o qədər də ehtiyac qalmır. Lakin daha çox gələcəyə ünvanlanmış Heydər Əliyev irsi bir məktəb, inkişafımızın yol xəritəsi kimi həmişə gündəmdə olmalıdır. Və bəzən elə bu günün və gələcək nəslin dövlətçilik, siyasi liderlik, insanlıq, bəşərilik, millilik fəlsəfəsinə ləyaqətlə hazırlanmaları üçün bu "görünən dağ"ın millətə xidmət strategiyasının detallarını açmaq, göstərmək zərurəti meydana çıxır. Bu təfəkkür sahibinin xalq, millət qarşısındakı fəaliyyəti ciddi elmi əsərlərdə, monoqrafiyalarda, ədəbi-bədii, publisistik əsərlərdə təhlil edilmiş, bir-birindən dəyərli səmimi kitablar meydana çıxmışdır. Bu çoxsaylı əsərlərin hamısını bir yerə toplasaq və ümumiləşdirsək böyük Atatürkün belə bir tezisinin təsdiqini görəcəyik: "Ən böyük şəxslər özündən çox mənsub olduğu cəmiyyəti düşünən, onun varlığının və xoşbəxtliyinin qorunması yolunda həyatını verən insanlardır". Uzun illər keçəcək və Azərbaycan dövlətinin, mənsub olduğu xalqın yolunda min bir məşəqqətlərə sinə gərərək ölüm-dirim mübarizələrindən qalib çıxan Heydər Əliyev deyəcək: "Mən həyatım, bütün əmək fəaliyyətim dövründə ancaq xalq üçün, insanlar üçün düşünmüşəm, xalq üçün yaşamışam, insanlar üçün yaşamışam. Bu gün də bu fikirlərlə yaşayıram". Böyük Atatürk görümü və böyük Heydər Əliyev gerçəkliyinin üst-üstə düşən bu məqamı insanda heyrət doğurmaya bilmir. Dünyanın ən nüfuzlu siyasi, ictimai xadimləri, ölkə başçıları dövlət quruculuğu, müstəqillik uğrunda mübarizə kimi taleyüklü məsələlərdə Heydər Əliyevin xidmətlərini heyranlıqla təqdim edirlər. Müasir Amerika siyasi kursunun yaradıcısı Z. Bzejinski Heydər Əliyevin Azərbaycana rəhbərliyə yenidən qayıtmasının ilk illərində onun fəaliyyətini belə qiymətləndirirdi: "Bu gün Azərbaycanı idarə edə biləcək yeganə şəxsiyyət Heydər Əliyevdir". Dünya siyasətində sözünün məsuliyyəti ilə seçilən və bu sözləri deyərkən ABŞ-ın ən yüksək elitasında yüksək vəzifə tutan Z. Bzejinski o anda Azərbaycanın siyasi, beynəlxaq vəziyyətini, ölkənin düşdüyü acınacaqlı vəziyyəti nəzərə alaraq H. Əliyevin bacarığını bu məsuliyyət hissi ilə beləcə dilə gətirmişdi. Elə o vaxtlar ABŞ kimi nəhəng bir iqtisadi ölkənin prezidenti Bill Klinton da böyük uzaqgörənlik və böyük bir səmimiyyətlə deyirdi: "Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan firavan gələcəyin bünövrəsini qoymaqdadır". O zaman bir çoxları üçün bunlar gəlişigözəl sözlər kimi görünə bilərdi. Amma üstündən tarix üçün o qədər də böyük olmayan qısa bir vaxt keçdi və Bill Klinton uzaqgörənliyinin özünü necə doğrultduğu şübhələnənləri heyrətə saldı. Bütün bu dəqiq proqnozlar, öncəgörmələr Heydər Əliyevin idarəçilik məktəbindəki fəaliyyətinə əsaslanırdı. Azərbaycanın ən təlatümlü, həyəcanlı günlərində, müstəqilliyimizin bir neçə istiqamətdən hədəfə alındığı, bəzi

dövlətlərin bu müstəqilliyə qısqanc münasibəti və üstəgəl Ermənistanın müharibə şantajı kimi çətin bir dövrdə Heydər Əliyev nüfuzlu beynəlxalq kürsülərdən qətiyyətlə, həm də təkrar-təkrar deyirdi: "Azərbaycanın dövlət müstəqilliyi əbədidir, sarsılmazdır, dönməzdir". Bu sözlərin təkcə konstatasiyası – qeyd olunmasının özü yenə də çoxlarında təəccüb doğururdu. Azərbaycanın o günlərinin ağır vəziyyəti, ölkənin yenidən başqa dövlətlərdən asılı olacağına potensial şərait Ulu Öndərin bu qətiyyətini bəzilərinin ironiya ilə qarşılamasına da əsas verirdi. Amma idarəçilikdə dünya təcrübəsini mənimsəmiş Heydər Əliyev kimi bir adam nə dediyinin məsuliyyətini yaxşı bilirdi. O zaman Heydər Əliyev deyirdi: "Müstəqilliyi təmin etmək üçün çox düşünülmüş xarici siyasət aparmaq lazımdır". Və elə o zaman dövlət siyasətində zəngin təcrübəsi olan, Türkiyənin Prezidenti Süleyman Dəmirəl Ulu Öndərin müstəqillik və xarici siyasət ideyasını necə uğurla apardığına işarə edərək deyirdi: "Hörmətli Heydər Əliyev dünyada tanınan adamdır. Hansı qapını döysə, o qapı açılır. İstədiyi zaman Şirakla, istədiyi zaman Buşla, istədiyi zaman istədiyi kişi ilə danışır. Azərbaycan dövlətini dünyada etibarlı şəkildə təmsil etməkdədir". Əlbəttə, bu sözlər Heydər Əliyevi bir dövlət xadimi kimi, birgə işindən tanıyan dövlət xadiminin fikridir. Amma Heydər Əliyevin siyasi bacarığını təkcə dövlət xadimləri deyil, dünyanın tanınmış ziyalıları da görür və qiymətləndirirdilər. Türk dünyasının böyük ədibi, sovet dövrünün Qazaxıstan dissidenti Oljas Süleymenov Heydər Əliyevin fəaliyyətini belə qiymətləndirir: "Heydər Əliyevdə zəngin siyasi təcrübə, kəskin məntiq və tarixi prosesləri istiqamətləndirə bilmək istedadı var". Dünya şöhrətli musiqi metri – öz sənəti ilə dünya salonlarını heyrətə salmış M. Rostropoviçin bu səmimi sözləri də adamı heyrətə gətirir: "... Ulu tanrı Azərbaycan xalqının taleyinə çətin, əzablı günlər yazsa da, bu əzablara sinə gərə biləcək, bütün dünyaləri açmağa qadir ola biləcək böyük şəxsiyyət qismət edib". İstər elmi ədəbiyyatda, istərsə də publisistikada H. Əliyev şəxsiyyəti haqqında dəqiq və maraqlı fikirlər çoxdur. Bu sırada belə bir fikir də dəqiqdir ki, "Heydər Əliyevi bir çox dahilərdən fərqləndirən başlıca cəhət onun daha uzaqgörən kamil siyasətçi olması, təhlükələri öncədən hiss etməsi, özünü mübarizələrə, müqavimətlərə hazırlama qabiliyyəti idi"(1,s. 35).

Heydər Əliyevin müstəqilliyimizi dönməz, əbədi və sarsılmaz etməsi onun bu sahədə ümumxalq, ümummilli problemlərə elmi, praktik yanaşmasının nəticəsidir. Heydər Əliyev xüsusi qeyd edirdi ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən də çətindir. 1992-ci ildə qazandığımız müstəqilliyin fəlakətlə üzləşməsi bu fikri sübut etdi: "Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra yaranmış şərait həmin tarixi hadisələri operativ və düzgün qiymətləndirməyi, çıxış yollarını axtarmağı tələb edirdi. Belə bir şəraitdə, Azərbaycanın tale məsələlərinin həlli üçün həmin dövrlərdə Heydər Əliyev kimi siyasətçinin Azərbaycana qayıtması ən labüd, zəruri və gərəkli hadisə idi"(2,s. 6). Bu "hadisə", yəni Heydər Əliyev fenomeni xalqın girdablardan xilas yolu idi. AMEA-nın müxbir üzvü, professor Səlahəddin Xəlilov bu böyük insanın xalq, millət, dövlətçilik, milli inkişaf konsepsiyasını özünün"Lider. Dövlət. Cəmiyyət" adlı funda-





mental əsərində çox maraqlı elmi yanaşmalarla təhlil etmişdir. Heydər Əliyevin ictimai-siyasi fəaliyyətini bir çox istiqamətdən araşdıran bu əsərdən də aydın olur ki, böyük dövlət xadimi ölkədə vətəndaş quruculuğu prosesinə, bu prosesdə elmin, təhsilin, mədəniyyətin roluna, dil və mənəviyyata, qloballaşma dövründə Azərbaycanın beynəlxalq aləmdə yerinə və s. məsələlərə çox böyük diqqət yetirmiş və bu sahədə özünün ortaya qoyduğu ideyaları bacarıqla həyata keçirmişdir.

Böyük şəxsiyyətlərin böyüklüyü tarixən onların yaratdığı məktəbin səviyyəsi ilə ölçülür. Məsələn, dünya sənət mühitində Tolstoy, Dostoyevski, Markes məktəbləri, Nyuton, Eynşteyn, Nils Bor. . . məktəbləri, Azərbaycan mühitində Nizami Gəncəvi, M. F. Axundzadə, Vaqif ədəbi məktəbləri, N. Tusi, Y. Məmmədəliyev, X. Məmmədovun elmi məktəbləri. Adətən, belə məktəblər sənətlə, elmlə daha çox bağlı olur. Bu elm, sənət məktəbləri, nə qədər tutumlu olsa da, həm də lokal xarakter daşıyır, yəni ancaq müəyyən bir sahəni klassikləşdirir. Elə şəxsiyyətlər də var ki, onların yaratdıqları məktəblər polifonik xarakter daşıyır, ictimai, siyasi, politoloji, elmi sahələrin bir çox istiqamətlərini əhatə edir. Heydər Əliyev polifonik məktəblərin məcmusunu yaratmış şəxsiyyətdir. Bu məktəb siyasi, ictimai istiqamətdən tutmuş, xalqa məhəbbətin və nəhayət, ev, ailə, ömür-gün yoldaşına sevginin yüksək ölçülərinə yiyələnməyi öyrədir. Heydər Əliyev böyük siyasi xadimdir. Lakin o, özünün siyasi xəttində xalqın bütöv taleyini və bütövlüyü təşkil edən bütün sahələri diqqətdə saxlamışdır. Məsələn, Heydər Əliyev yaxşı bilirdi ki, bədii ədəbiyyat xalqın, millətin obrazını tarixdən bu günə və bu gündən gələcəyə daşıyan mükəmməl bir milli xəritədir. Yeni müstəqilliyimizin ilk illərində - bəlkə də hakimiyyət datrışmaları dövründə ədəbiyyat, incəsənət, milli-mənəvi dəyərləri əhatə edən hər şey məhvə sürüklənirdi. Belə bir anda yenidən rəhbərliyə gələn Heydər Əliyev dərhal ədəbiyyata öz münasibətini bildirdi. "Belə isti, səmimi, mehriban münasibəti qələm əhli on ildən artıq idi ki, görmüşdü"(3,s. 221). Keçid dövrü kimi çətin bir şəraitdə ədəbi qüvvələrə sahib çıxmaq çox vacib bir məsələ idi. Ulu Öndər o zaman özü bunu belə ifadə edirdi: "İndi biz keçid dövründəyik. Məni də çox narahat edir ki, ziyalılarımız, mədəniyyət və incəsənət xadimlərimizin bir çoxu, bəlkə də hamısı ağır şəraitdə yaşayır. Bu, onun yaradıcılığına da təsir göstərir. Yazıçıya, alimə, bəstəkara, rəssama mənəvi hörmət indi də var. Şəxsən məndə onlara qarşı belə hörmət həmişə olmuşdur və ömrümün axırınadək də qalacaqdır. Ancaq indi bunu maddi baxımdan reallaşdırmaq imkanları çox azdır. Bununla belə biz yaradıcı adamlarımıza kömək etməliyik"(3,s. 221). Və Heydər Əliyev həmin o çətin şəraitdə artıq arxivlərə yollanmış "Azərbaycan", "Ulduz", "Qobustan" kimi jurnalların dövlət tərəfindən maliyyələşdirilməsini təmin etdi. Hamının yaxşı yadındadır ki, Ulu Öndər "Dədə Qorqud", "Koroğlu" kimi ədəbi abidələrimizin yubileylərini təşkil etdi, dünya azərbaycanlılarının tarixi qurultayını keçirtdi və s.

Aydındır ki, azərbaycançılıq anlayışı öz tarixi köklərini qədim dövrlərdən alır. Və o da aydındır ki, bu günki "Müstəqil Azərbaycan dövlətinin ideoloji əsasını, xalqımızın və dövlətimizin maraqlarının başlıca mahiyyətini Azərbaycançılıq

təlimi özündə cəmləşdirir. Bu mənada hazırkı mərhələdə Azərbaycançılıq dünya azərbaycanlılarının vahid, ümummilli təlimi, birləşdirici ideologiyasıdır"(6. ,s. 600). Azərbaycançılıq "Dədə Qorqud"dan üzü bəri bədii söz sənətimizdə, publisistikamızda formalaşmış, böyük Mirzə Cəlilin "Azərbaycan" məqaləsində özünün epogeyinə çatmışdır. Lakin "Azərbaycançılıq anlayışı milli siyasi müstəvidə özünün ən yüksək ifadəsini Ümummilli liderimiz Heydər Əliyevin düşünülmüş siyasəti sayəsində tapa bilmişdir. Məhz görkəmli dövlət xadimi Heydər Əliyev çoxəsrlik tariximizdə ilk dəfə olaraq Azərbaycançılığı müstəqil Azərbaycan dövlətinin ideologiyası səviyyəsinə çatdırmağa nail olmuşdur. Uzaqgörən müdrik siyasətçi Heydər Əliyevin apardığı məqsədyönlü siyasətin nəticəsində artıq Azərbaycançılıq dünya azərbaycanlılarının vahid milli anlamına çevrilmişdir"(4.)

Heydər Əliyev 2001-ci il noyabrın 10-da Bakıda təşkil etdiyi Dünya azərbaycanlılarının birinci qurultayında bu ideologiyanı şəxsən özü rəsmiləşdirmişdir: "Hər bir millət üçün onun milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam. Müstəqil Azərbaycan dövlətinin əsas ideyası azərbaycançılıqdır. Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı – Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq"(4) Azərbaycan xalqı Ulu Öndərin bu sözlərini heç vaxt unutmadı.

Xalq Heydər Əliyevin dövlət quruculuğu missiyasını bir məktəb kimi qəbul etdi. Ona görə də "Heydər Əliyevin inandığı, əminliklə verdiyi proqnozların hamısı indi günün reallıqları sırasındadır"(5).

Heydər Əliyevin Vətən sevgisi, millət sevgisi göz önündədir. Bu sevgi dərs alası, dərs götürüləsi bir məktəbdir. Heydər Əliyevin insana, Azərbaycan vətəndaşına sevgisi bir örnəkdir. Ulu öndərin sevgisi bizi sənəti və sənətkarları sevməyə sövq edir. Onun Azərbaycanın bədii sənətinə sevgisini ifadə edən: "Bəzən Azərbaycan ulduzlarının – görkəmli müğənnilərinin, artistlərinin, bəstəkarlarının fəaliyyətindən fərəhlənərək düşünürəm: Görəsən, bundan sonra beləsi gələrmi? Hər dəfə də öz-özümə cavab verirəm ki, mütləq gələcək, çünki xalqımız keçmişdə də əsrlər boyu belə istedadlar yetişdirib, indi də yetişdirir və bundan sonra da yetişdirəcək", – sözləri xalqının istedadına onun liderinin məhəbbətindən doğan inam hissidir. Qəlbində sənətə, poeziyaya, bədii sözə, xalq yaradıcılığına, lirikaya sonsuz sevgisi olan bu böyük insan şəxsi həyatında ömür-gün yoldaşına münasibətində də nəsillərə örnək səviyyəsinə yüksəldi. Onun ömür-gün yoldaşı Zərifə xanım haqqında xatirələrində sevgisinə sədaqətli, bu sədaqəti, bu sevgini heç nəyə qurban verməyən, bu yolda min bir zillətə dözməyə hazır olan bir kişi ləyaqəti bizi mütəəssir edir, sevgimizə layiq olmağa çağırır. Bu xatirələrdə öz sevgisi yolunda çəkdiyi cəfaları həyatının ən qiymətli anları kimi yaşayan Heydər Əliyev insanlara sevməyi, sevilməyi də öyrədən bir örnəkdir. Heydər Əliyev xəyanəti lənətləyən bir insandır. Xüsusilə Azərbaycana, dövlətçiliyə xəyanəti heç vaxt, heç kimə bağışlamadı. O deyirdi: "Əgər kimsə Azərbaycan dövlətçiliyinə xəyanət edəcəksə, mən son damla qanıma qədər onunla mübarizə aparacağam. Azərbaycanın dövlətçiliyinin, müstəqilliyinin keşiyində bir vətəndaş kimi də, prezident kimi də durmuşam, duracağam və bu yolda hər dəqiqə, hər gün şəhid olmağa hazıram". Və onun dövlətçiliyə münasibətlə bağlı daha bir qəti qərarı: "Əgər hansı bir namərd gülləsi, hansı bir terrorçu gülləsi məni həyatdan götürərsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban verməyə hazırıq". Bu sözlərin, bu müqəddəs fikirlərin sahibi övladlarını da bu ruhda böyütdü -Azərbaycan sevgisi, Vətən sevgisi, millət sevgisi ruhunda!

Ermənistanın 30 ildən çox işğal altında saxladığı Azərbaycan torpaqlarının 44 günlük Vətən müharibəsində azad edilməsi, mənfur düşmən üzərində görünməmiş qələbəmizi təmin edən ordumuzun Ali Baş Komandanı, Prezident İlham Əliyev Ulu öndərimizin bu sözlərini özünün həyat amalı kimi qəbul edərək ölkəmizin qüdrətini dünyaya tanıtdı.

## İSTİFADƏ OLUNMUŞ ƏDƏBİYYAT


1. Amaşov Əflatun. Heydər Əliyevin media dərsləri. "Nurlan" nəşriyyatı, Bakı, 2020, səh. 35
2. Heydər Əliyev və mətbuat. Dörd cilddə, I cild, "Nurlan" Nəşriyyat-Poliqrafiya Mərkəzi, Bakı, 2003, səh. 6
3. Heydər Əliyev və Azərbaycan ədəbiyyatı. "Şərq-Qərb", 2009, səh. 221
4. Heydər Əliyevin Dünya azərbaycanlılarının I qurultayında nitqi. "Azərbaycan" qəzeti, 11 noyabr 2001
5. Mirzəbəyli İttifaq. Azərbaycanın dövlət müstəqilliyi xalqımızın ən böyük sərvətidir. "Xalq qəzeti", 28 may 2023
6. İsa Həbibbəyli. Ədəbi-tarixi yaddaş və müasirlik. "Nurlan" nəşriyyatı, Bakı, 2007, səh. 612
7. Zəfər yolu. 44 günlük Vətən müharibəsi zamanı Prezident, Ali Baş Komandan İlham Əliyevin çıxışları, müsahibələri, tvitləri. "Qanun" nəşriyyatı, Bakı, 2020, səh. 324



**Cahangir Mammadli**


**The realities of Heydar Aliyev's statehood mission**


**Summary**

*The article discusses Heydar Aliyev's activities in the field of state-building and state policy, as well as his scientific and journalistic ideas regarding the role of independent Azerbaijan in the modern development process. In this context, an analysis is made of Heydar Aliyev's proposed statehood ideals and the factual realization of these ideas. The article also presents specific quotations highlighting the high appreciation of Heydar Aliyev's statehood concept by world leaders.*



*Keywords: Statehood, independence, Homeland, Azerbaijani nationalism, leader, concept, schools of creativity*

Джахангир Мамедли

## Реалии государственной миссии Гейдара Алиева

**Резюме**

*В статье выдвигаются научные и публицистические мнения о деятельности Гейдара Алиева в области государственного строи-тельства и государственной политики, о роли лидера в процессе развития независимого Азербайджана. В этом контексте анализи-руются идеи государственности, выдвинутые Гейдаром Алиевым, и факты реализации этих идей. В статье представлены специальные цитаты мировых лидеров, высоко оценивающие деятельность Гейдара Алиева, связанной с концепцией государственности.*

*Ключевые слова: государственность, независимость, Родина, азербайджанство, лидер, концепция, творческие школы.*